BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Humanitar elmlər seriyası 2006

# ENEOLİT VƏ İLK TUNC DÖVRÜNDƏ AZƏRBAYCANDA MALDARLIQ TƏSƏRRÜFATININ İNKİŞAFI İLƏ ƏLAQƏDAR EV HEYVANLARINA SİTAYİŞİN MEYDANA GƏLMƏSİ

N.V.QULUZADƏ
*Bakı Dövlət Universiteti*

Azərbaycanın qədim tarixi ilə bağlı problemlər sırasında maldarlığın təşəkkülü və inkişafı ilə əlaqədar ibtidai dini inancların, daha dəqiq desək ev heyvanlarına sitayişin yaranması məsələsi öz aktuallığı ilə seçilir. Qədim dini inancların öyrənilməsinə böyük önəm verən tədqiqatçı K.Məmmədovun fikrincə, problemin öyrənilməsi azərbaycanlıların soykökünün araşdırılması baxımından aktualdır. Belə ki, islamaqədərki dini inancların araşdırılması Azərbaycanda yaşayan və bu dini inancların daşıyıcıları olan xalq və tayfaların mənəvi dəyərlərinin, onların genetik qohumluqlarının öyrənilməsinə şərait yaradır.[1] Maldarlıqla bağlı inancların və mərasimlərin tədqiqi istiqamətində bir sıra görkəmli tədqiqatçılar tərəfindən müəyyən elmi araşdırmalar aparılsa da, bu məsələ kompleks şəkildə tam öyrənilməmişdir. Bu baxımdan da problemi araşdırmaq üçün ilk öncə biz Cənubi Qafqazda maldarlıq təsərrüfatının meydana gəlməsinə bir qədər aydınlıq gətirməyə səy göstərəcəyik.

Bildiyimiz kimi Cənubi Qafqazın, o cümlədən Azəbaycanın zəngin bitki və heyvanat aləminə, eləcə də mülayim təbii-iqlim şəraitinə malik olması paleocoğrafi tədqiqatlarla sübut olunmuşdur. Təkcə Muğan düzündə Xvalın və Yeni Kaspi (Holosen) dövrlərində (e.ə. XV-II minilliklər), bir neçə quru iqlim dövrlərini çıxmaq şərti ilə, əsasən çayboyu tuqay meşələrlə birlikdə, çöl landşaftı hökm sürmüşdür. Bu dövrdə Muğan düzündə həm də yovşan-şoranlı ot örtüyü üstünlük təşkil edirdi. Eyni zamanda bölgənin iqlimində tədricən baş verən istiləşmə rütubətliyin artımına da səbəb olmuşdur.[2] Zənn edirik ki, belə bir təbii şərait ayrı-ayrı heyvanların əhliləşdirilməsi, sonralar isə maldarlıq təsərrüfatının təşəkkülü üçün zəmin yaratmışdır.

Bioloji materiallar da (bir sıra mədəni bitkilərin və ev heyvanlarının vəhşi növlərinin mövcudluğu) göstərir ki, Cənubi Qafqazda, o cümlədən Azərbaycanda istehsal təsərrüfatına keçid üçün elə əlverişli təbii şərait olmuşdur. Lakin holosenin əvvəllərində bu təbii şərait Qafqazın bütün ərazisində mövcud olmamışdır. Belə ki, vəhşi öküzlər Cənubi və bir qədər də Cənub-Şərqi Qafqazda, vəhşi keçilər yalnız Cənu-

[1] Məmmədov K.N. İslamaqədərki Azərbaycanda dini inanclar. Namizədlik dissertasiyasının avtoreferatı, B., 1996, səh. 3

[2] Алиев А.И., Атакишиев Р.М., Велиев С.С., Гасанов Г.К., Работина Е.Н., Сулейманов М.Б. Ландшафтно-климатические условия Муганской равнины в Хвалыне и Голоцене. Доклады АН Азерб. ССР, том XLV, 1989, № 2, с. 68.

bi Qafqazda və Böyük Qafqaz dağlarında, muflonabənzər qoyunlar isə yalnız Cənubi Qafqazda məskən salmışdılar.[1] Göründüyü kimi maldarlığın əsasını təşkil edən bəzi ev heyvanlarının qədim əcdadları məhz Cənubi Qafqazda, o cümlədən Azərbaycanda mövcud olmuş və əhliləşdirilmişdir. Lakin düşünürük ki, heyvanların əhliləşdirilməsi prosesi tədricən Şimali Qafqazda da getmişdir. Belə ki, erkən neolit məskənləri sakinlərinin əhliləşmiş heyvanlara malik olmalarını Darkveti, Saxkunka, Çox, Malin Karat və Mekeqi kimi abidələrdən tapılmış iri və xırda buynuzlu heyvanların, it və donuz sümükləri sübut edir.[2]

Məhz belə bir təbii şəraitin və bioloji faktorların Azərbaycanda mövcud olması burada yığıcılıq təsərrufatından istehsal təsərrüfatına keçidi şərtləndirən amillər olmuşdur.

Tədqiqatlar göstərmişdir ki, istehsal təsərrüfatına keçidə təsir göstərən amillərdən biri də Qafqazın Ön Asiya regionu ilə həmsərhəd olmasıdır. Belə ki, istehsal təsərrüfatının mühüm sahələrindən biri olan maldarlığın yaranması ilə bağlı hələ keçən əsrdən müxtəlif nəzəriyyələr meydana gəlmişdir. Belə nəzəriyyələrdən biri bu idi ki, maldarlıq Yaxın Şərqin əkinçi tayfaları arasında meydana gəlmiş və bundan sonra digər ərazilərə də yayılmışdır. Bu fərziyyənin ən qatı tərəfdarlarından olan E.Xanın fərziyyələrinə görə, əkinçi tayfalar öz əhatələrində olan vəhşi heyvanları sakral təsəvvürlərinə görə əhliləşdirmiş və tədricən maldarlığın əsasını qoymuşlar. Çox keçmədən maldarlıq həmin tayfaların müstəqil təsərrüfat sahəsinə çevrilmiş və inkişaf etdirilmişdir. Kote, Lattimor və Rix Berdsley kimi tədqiqatçılar da bu nəzəriyyəni müdafiə etmişlər.[3]

Məlumdur ki, Ön Asiyanın arxeoloji abidələrində istehsal təsərrüfatının formalaşması prosesinin e.ə. VII minillikdən başlandığı həmin abidələrdən aşkar olunmuş tutarlı maddi-mədəniyyət nümunələri ilə təsdiqlənmişdir. Ön Asiyanın erkən əkinçilik və maldarlıq mədəniyyətlərinin tədricən qonşu vilayətlərə yayılması prosesi Qafqazdan da yan keçməmişdi. E.ə. VI minilliyin ikinci yarısından etibarən Qafqazda da erkən əkinçilik və maldarlıq mədəniyyətlərinin yaranması və inkişafı məhz Ön Asiya təsirinin nəticəsi olmuşdur.[4]

Belə ki, eneolit dövründə Ön Asiyada geniş yayılmış Hələf mədəniyyəti tayfaları ilə mədəni əlaqələrə dair Qafqazda ilk məlumat Kültəpə yaşayış məskənindən əldə edilməsini bu təsirin bariz nümunəsi hesab etmək olar. Hələf mədəniyyətindən sonra Ön Asiyada geniş yayılan Ubeyd mədəniyyəti tayfaları da Qafqaza köç etmiş və burada məskunlaşmışdılar. Ağdam rayonundakı Leylatəpədə bu özünü aydın göstərir.[5]

Beləliklə, daha qədim dövrlərdən formalaşmış maldarlıq təsərrüfatının eneolit dövründən başlayaraq Azərbaycan ərazisində daha da inkişaf etməsi faktlarla sübuta yetirilmişdir. Məlum olur ki, həmin dövrdə qədim sakinlər həm iribuynuzlu mal-qara, həm davar, həm də donuz

---

[1] Шнирельман В.А. Происхождение скотоводства. М., 1980, с. 68.

[2] Кушнарева К.Х. Южный Кавказ в IX-II тыс. до н. э. Санкт-Петербург, 1993, с. 180.

[3] Титов В.С. Первое общественное разделение труда. Древнейшие земледельческие и скотоводческие племена. Краткие сообщения ИА АН СССР, вып. 88, Москва, 1962, с. 12.

[4] Нариманов И.Г. К вопросу возникновения и становления производящего хозяйства на Кавказе. Tarix və onun problemləri, Bakı, 1997, № 2, səh. 31-32.

[5] Nərimanov İ.H. Naxçıvanın erkən əkinçi-maldar əhalisinin tarixindən. Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, № 1, Bakı, 2003, səh. 33.

saxlamışlar. Hətta eneolitin son mərhələsində atın əhliləşdirilməsi (Əliköməktəpəsi) faktı da müəyyən edilmişdir.[1]

Azərbaycanda ev heyvanlarının varlığı və onların yerli əhalinin təsərrüfat həyatındakı mövqeyini təyin etmək üçün birinci növbədə arxeoloji materiallara müraciət etmək lazımdır. Qazıntılar zamanı tapılan materiallar içərisində əsas yerlərdən birini osteoloji qalıqlar tutur. Məlumdur ki, son dövrlərdə respublikamızın ərazisində tarixin müxtəlif dövrlərinə aid olan arxeoloji abidələrdən çoxlu miqdarda heyvan sümükləri tapılmışdır. Tədqiq olunan dövrə aid abidələrdən də külli miqdarda osteoloji material əldə olunmuşdur. Eneolit dövrünə aid abidələrdən olan Şomu təpədən aşkar olunmuş osteoloji materialın 57%-ni xırdabuynuzlu heyvan sümükləri, 25%-ni iribuynuzlu mal-qara sümükləri, 5,5%-ni donuz sümükləri və 3,3%-ni isə it sümükləri təşkil edir.[2]

E.ə. V-IV minilliklərə aid olan Qarğalar təpəsi də osteoloji materialla zəngin olub, bu materialın 49,3%-ni xırdabuynuzlu heyvan sümükləri, 23,4%-ni öküz sümükləri, 15%-ni donuz sümükləri və 9,8%-ni isə it sümükləri təşkil edir. Baba-Dərviş abidəsinə gəldikdə isə abidədən əldə olunan osteoloji materialın 49%-ni xırdabuynuzlu heyvanların sümükləri, 36,5%-ni öküz sümükləri və 5%-ni isə donuz sümükləri təşkil edir.[3]

İribuynuzlu heyvan sümüklərinin tədqiqi nəticəsində həmin dövrdə maldarlıq təsərrüfatında iki öküz cinsinin varlığı məlum olmuşdur. Abidələrdə rast gəlinən osteoloji materialların tədqiqi göstərir ki, bölgənin təsərrüfatında istifadə olunan öküzlər xırda (*Bos tauries brach*) və böyük (*Bos primigenius*) cinslərə mənsub olmuşlar. Tunc dövrünün abidələrində xırda cins öküzlərə daha tez-tez rast gəlinir.[4]

Bundan başqa mövcud osteoloji materialın tədqiqi nəticəsində məlum olmuşdur ki, keçilərə məxsus bəzi sümükləri bu heyvanın ibtidai əcdadının sümükləri ilə bir qədər oxşarlıq təşkil edir. İtlərə məxsus ayrı-ayrı sümüklər əsasında isə müəyyən olunmuşdur ki, həmin itlər bir qədər xırda cinsə aid olmuşlar.[5]

Əliköməktəpəsində at sümüklərinə rast gəlinməsi Cənubi Qafqazda atın əhliləşdirilməsi və bəslənilməsi ilə bağlı məsələlərin öyrənilməsi baxımından böyük əhəmiyyətə malikdir. Böyük əhəmiyyət kəsb edən məqamlardan biri də ondan ibarətdir ki, tapılan at sümükləri faiz etibarilə digər sümük qalıqları arasında üçüncü yerdədir və bu at sümüklərinin tədqiqi zamanı iki at cinsinin mövcudluğu müəyyən olunmuşdur.[6]

Tədqiqatçılar abidələrdə iribuynuzlu mal-qaraya məxsus osteoloji materialın kəmiyyət baxımından üstünlüyünü daha çox maldarlıq təsərrüfatının oturaq xarakterli olması ilə əlaqələndirirlər. Çünki bir sıra yaşayış məskənlərinin çox da böyük olmayan otlaq sahələrinin yaxınlığında yerləşməsi erkən tunc dövrünün başlanğıc mərhələlərində köç üçün o qədər də yararlı olmayan iribuynuzlu mal-qaranın inkişaf etdi-

---

[1] Cəfərov H.F. Azərbaycan e.ə. IV minilliyin axırı-I minilliyin əvvəllərində. Bakı, 2000, səh. 143.

[2] Нариманов И.Г. К истории древнейшего скотоводства Закавказья. ДАН Аз ССР, № 10, 1977, с. 57.

[3] Yenə orada.

[4] Исмаилов Г., Дадашев А. Раннее скотоводство на территории Азербайджана и его основные направления. Tarix və onun problemləri, № 2, Bakı, 1997, səh. 37.

[5] Нариманов И.Г. К истории древнейшего скотоводства Закавказья..., s. 57.

[6] Yenə orada, səh. 58.

rilməsinə öz müsbət təsirini göstərirdi.[1]

Görkəmli tədqiqatçı T.Bünyadov oturaq formanı maldarlıq təsərrüfatının erkən mərhələsi üçün daha qanunauyğun hal hesab edərək demişdir: «Azərbaycanda əsası təxminən neolit və bəlkə də mezolit dövründən qoyulan bu forma eneolit dövründə demək olar ki, əsas və yeganə maldarlıq forması olaraq müstəsna əhəmiyyət kəsb etmişdir...».[2] Lakin tunc dövrünün sonrakı mərhələlərində iribuynuzlu mal-qaranın maldarlıqda aparıcı mövqeyi tədricən itməyə başlayır. Buna xırdabuynuzlu heyvanların sayının daha da artması səbəb olur. Onu da qeyd etmək lazımdır ki, xırdabuynuzlu heyvanların artırılması üçün təbii-coğrafi şəraiti əlverişli və bol yem ehtiyatına malik olan geniş otlaq sahələrinin mövcudluğu zəruridir.[3]

E.ə. IV-III minilliklərdə Kür-Araz mədəniyyəti tayfalarının təsərrüfat həyatında əsaslı dönüş baş verir. Maldarlığın sürətli inkişafı, yeni-yeni münbit torpaqların mənimsənilməsi və onlardan əkinçilik məqsədilə istifadə edilməsi, artıq məhsul istehsalı və bunlarla əlaqədar olaraq tayfalar arası iqtisadi mədəni əlaqələrin genişlənməsi bu qəbildəndir.[4]

Maldarlıq sahəsində əldə olunmuş nailiyyətlər ilk tunc dövründə daha da möhkəmləndirilmişdir. Əgər ilk tunc dövrünün erkən mərhələsində maldarlıqda üstün yeri hələ də iri buynuzlu mal-qara təşkil etmişdirsə, artıq e.ə. III minilliyin ortalarından xırda davarların sayı artaraq aparıcı yer tutur. Bütün bunlar heç şübhəsiz insanların gündəlik məişətinə, təsərrüfat həyatına, dünyagörüşünə, ideoloji baxışlarına və cəmiyyətin daxili quruluşuna təsir etməyə bilməzdi.[5]

Beləliklə, maldarlığın meydana gəlməsi və inkişafı ilə əlaqədar olaraq insanların şüurunda və ictimai həyatında da mühüm dəyişikliklər baş verir. Qədim insanlar daha çox məhsul əldə etmək üçün təkcə əmək alətlərini təkmilləşdirməklə və ya mal-qaranın sayını artırmaqla kifayətlənmir, bunun hər hansı bir fövqəltəbii qüvvədən asılı olduğunu zənn edərək öz allahlarını yaradırlar.[6]

Bildiyimiz kimi heyvanlara sitayiş etmək, onların timsalında öz totemini, öz nəslinin ilkini görmək dünyanın müxtəlif yerlərində geniş yayılmışdır. Ən qədim dini inamlardan biri olan totemizm dünyanın hər yerində olduğu kimi Azərbaycanın qədim sakinlərinin də dünyagörüşündə geniş yer tutmuşdur. Dünyanın ayrı-ayrı xalqlarının mənəvi mədəniyyət tarixində totemizm müxtəlif formalarda təzahür etmişdir. Lakin qeyd etmək lazımdır ki, qədim Azərbaycanda totemizm özünün yuxarıda qeyd edilən klassik formasında mövcud olmamışdır.[7]

Bu baxımdan hesab edirik ki, tədqiqatçı N.Müseyibli öz fikirlərində haqlıdır: «Azərbaycanın qədim sakinlərinin totemizmi əks etdirən dini inamları onlar üçün həyatı əhəmiyyət kəsb edən təsərrüfat heyvanla-

---

[1] Исмаилов Г., Дадашев А. Раннее скотоводство на территории Азербайджана и его основные направления..., səh. 36.

[2] Bünyadov T.Ə. Azərbaycanda maldarlığın inkişafı tarixindən. Bakı, 1969, səh. 6.

[3] Исмаилов Г., Дадашев А. Раннее скотоводство на территории Азербайджана и его основные направления., səh. 36.

[4] Aşurov S.H. Naxçıvanın ilk tunc dövrü keramikası. Bakı, 2002, səh. 64

[5] Cəfərov H.F. Göstərilən əsəri, səh. 143.

[6] Ələkbərov A.İ. Azərbaycanda eneolit dövrünə aid gil heykəllər. Az SSR EA məruzələri, №8, 1983, səh. 70.

[7] Müseyibli N.Ə. Gəmiqaya. Bakı, 2004, səh. 86.

rı, ovladıqları və gündəlik həyatlarında rast gəldikləri bəzi heyvanlar (maral, quş, ilan və s.) haqqında mifik təsəvvürlərdən ibarətdir. Onlar bu heyvanlar haqqında əfsanələr, rəvayətlər qoşmuş, bəzən onları məhsuldarlığı, uğurlu ovu təmin edən «köməkçi», «xilaskar», «hami» obrazlarında müqəddəsləşdirmişlər. Lakin bu heyvanlara yaradıcı varlıq, ulu əcdad kimi sitayiş edilməmişdir».[1]

Bu baxımdan tədqiqatçı Q.İsmayılzadə haqlı olaraq söyləmişdir: «...ilk tunc dövründə Azərbaycan və Cənubi Qafqazın ayrı-ayrı yerlərində olduğu kimi ev heyvanları, xüsusən inək və öküz müqəddəs hesab edilərək əsas sitayiş obyekti olmuşdu. Məişət və təsərrüfatda, ümumiyyətlə, iqtisadiyyatda mühüm yer tutan belə heyvanlarda ilk tunc dövrünün əhalisi çox güman ki, qeyri-təbii qüvvələrin mənbəyini görmüş və oda etiqad mərasimlərində məhz bunları qurban gətirmişdilər».[2] Məhz buna görə rus tədqiqatçısı Z.Sokolovanın «heyvanların müqəddəs hesab edilməsi daha çox onların insanlara verdikləri fayda ilə əlaqədar olmuşdur» tezisi ilə razılaşmamaq qeyri-mümkündür.[3]

Beləliklə, eneolit və ilk tunc dövründə maldarlığın təşəkkülü və inkişafı ilə əlaqədar meydana gəlmiş ibtidai dini inancları, o cümlədən ev heyvanlarına sitayişi öyrənmək üçün tədqiq olunan dövrə aid arxeoloji abidələrdən əldə olunmuş maddi-mədəniyyət nümunələri böyük əhəmiyyət kəsb edir. Həmin maddi-mədəniyyət nümunələrini aşağıdakı kimi qruplaşdırmaq olar:

- gil məmulatı: heyvan fiqurları, zoomorf tipli ocaq qurğuları və digər əşyalar;
- qayaüstü təsvirlər;
- osteoloji materiallar.

Azərbaycanın bir sıra abidələrindən, o cümlədən I Kültəpə[4], Baba-Dərviş[5], Uzuntəpə[6], Maxta[7] və digər abidələrindən arxeoloji qazıntılar zamanı xeyli sayda heyvan fiqurları tapılmışdır. Bu fiqurlar içərisində öküz, qoyun, it, at və digər heyvan heykəllərinə rast gəlinir.

B.B.Piotrovski haqlı olaraq həmin fiqurların ilk dini təsəvvürlərlə əlaqədar olaraq qədim insanlar tərəfindən düzəldiyini qeyd edir. İlk dini təsəvvürlərlə – heyvanlara sitayişlə əlaqədar düzəldilən belə fiqurlar Yaxın Şərqin və Cənubi Qafqazın bir sıra abidələrindən də külli miqdarda tapılmışdır. Bunlara oxşar bir neçə fiqur Cənubi Azərbaycandakı Göytəpə abidəsindən aşkar olunmuşdur.[8]

Güman olunur ki, bu fiqurlardan müəyyən mərasimlər zamanı istifadə oluna bilərdi. Belə fiqurların məhsuldarlıqla əlaqədar müəyyən dini ayin icra edilən ibadətgahda, müvafiq yerdə, nazik metal oxa düzülmüş şəkildə saxlandığı halda da mülahizə söyləmək mümkündür. I Maxta yaşayış yerindən əldə olunmuş gil fiqurların yaşayış yerinin bilavasitə

---

[1] Müseyibli N.Ə. Gəmiqaya. Bakı, 2004, səh. 87.
[2] İsmayılov Q.S. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. Bakı, 1981, səh. 34.
[3] Соколова З.П. Культ животных в религиях. Москва, 1972, с. 178.
[4] Həbibullayev O.H. Kültəpədə arxeoloji qazıntılar. Bakı, 1959, səh. 72.
[5] İsmayılov Q.S. Babadərviş abidəsindən tapılan gil fiqurlar. Azərb. SSR EA Məruzələri, № 10, 1962, səh. 95-98.
[6] İsmayılov Q.S. Füzuli rayonunda Uzuntəpə ilk tunc dövrü yaşayış yeri. Azərb. SSR EA Xəbərləri, Tarix, fəlsəfə və hüquq seriyası, 1973, №4, səh. 71.
[7] Aşurov S.H. Şərurun eneolit və tunc dövrü abidələri. Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, № 2, Bakı, 2004, səh. 33.
[8] İsmayılov Q.S. Babadərviş abidəsindən tapılan gil fiqurlar., səh. 95-98.

müəyyən hissəsindən əldə edilməsi faкtı maraq doğurur. Həm də fiqurların əldə olunduğu yer güclü yanmaya məruz qalmışdır. Yaxınlıqdan isə müxtəlif formalı gil ocaq qurğuları tapılmışdır. Çox güman кi, bu hissədə dini tiкililər mövcud olmuşdur.[1]

Bildiyimiz кimi oturaq həyat tərzi кeçirən, əsas etibarilə əкinçiliк və maldarlıqla məşğul olan tayfaların təsərrüfatında əкinçinin əməyini xeyli yüngülləşdirən, onu məhsuldar edən və deməli, istehsalın yüкsəlişini təmin edən əvəzedilməz qoşqu qüvvəsi olan qaramal, xüsusilə öкüz təbii olaraq sitayiş obyeкtinə çevrilmişdir. Bu vaxtdan öкüzün müqəddəsliyi barədə dünyəvi görüş məişətdə öz əкsini tapır.[2] Azərbaycanda arxeoloji qazıntılar zamanı öкüz buynuzuna bənzər dəstəsi olan gil qabların tapılması, bu heyvanın dini ayin əhəmiyyəti daşıması ilə əlaqədardır.[3]

Zoomorf tipli ocaq qurğuları da, şübhəsiz, meydana çıxdığı ilк dövrlərdə bilavasitə məişət və təsərrüfatla bağlı olmuşdur. Yalnız sonralar кəsb etdiкləri əhəmiyyətlə əlaqədar olaraq mehrab rolunu oynamışdır. Ola bilsin кi, məhz bu əsasdan da onların bir hissəsi müəyyən məna daşıyan təsvirlərlə bəzədilmişdir.[4] Əкsər tədqiqatçıların fiкrincə özünün buynuzşəкilli çıxıntıları ilə öкüzü təlqin edən buynuzşəкilli ocaq qurğuları bilavasitə öкüz ayini ilə əlaqəlidir. B.A.Kuftin də buynuzşəкilli ocaq qurğularını öкüz ayini ilə əlaqələndirir. O, öz fiкrini əsaslandırmaq üçün кrit-miкen qurbangahından bəzi paralellər gətirmişdir.[5]

Hər bir xalqın, o cümlədən Azərbaycan xalqının qədim tarixinin öyrənilməsi üçün qayaüstü təsvirlər böyüк əhəmiyyət кəsb edir. Digər növ abidələrdən fərqli olaraq qayaüstü təsvirlər qədim insanların həyat tərzini, məşğuliyyətini, məişətini, mənəvi aləmini daha əyani şəкildə, real və obrazlı rəsmlərlə əкs etdirir. Məhz bu baxımdan tarixin daş yaddaşı olan qayaüstü təsvirlərin tədqiqi arxeologiya elminin əsas fəaliyyət istiqamətlərindən birini təşкil edir.

Qayaüstü təsvirlərlə zəngin olan Qobustan abidəsi də bu baxımdan böyüк maraq doğurur.[6] Güman olunur кi, Qobustan əvvəllər hesab edildiyi кimi, кənardan gələn ovçuların ov və ya ibadət yeri deyil və qayaüstü təsvirlər ovçular tərəfindən ovsunçuluq məqsədilə (ovun uğurlu olması üçün) yaradılmamışdır. Buradaкı qayaüstü təsvirlər qədim qobustanlıların öz həyat tərzi və dünya görüşləri haqda yaratdıqları ibtidai incəsənət əsərləridir. Tədqiqatçı C.Rüstəmov qeyd edir кi, bu təsvirlərin yaranması səbəblərinin кöкlərini maddi aləmin, ətraf mühitin və insanların gündəliк həyatının əкsində, tərənnümündə, qədim qobustanlıların dünya görüşündə axtarmaq lazımdır. Belə кi, əgər qayalarda heyvan şəкilləri ovsunçuluq məqsədilə çəкilsəydi Qobustan qayalarında ən çox кeçi, öкüz, maral yox, əsas ov obyeкti olmuş ceyran və gur şəкilləri çəкilmiş olardı.[7]

---

[1] Aşurov S.H. Naxçıvanın ilк tunc dövrü кeramiкası.., səh. 68

[2] Muradova F.M. Qobustanda qədim sitayiş yeri. Tarix və onun problemləri, Baкı, 1997, № 1, səh. 146.

[3] Quliyev N., Bəxtiyarov A. Azərbaycanda qədim dini ayinlər və onların məişətdə qalıqları. Baкı, 1968, səh. 60.

[4] Muradova F.M., İsmayılov Q.S. Azərbaycan ərazisində «Kür-Araz mədəniyyətinə» aid ocaq qurğuları. Azərb. SSR EA Xəbərləri, Tarix, fəlsəfə və hüquq seriyası, 1971, №2, səh. 56.

[5] Киквидзе Я.А. Земледелие и земледельческий культ в древней Грузии. Тбилиси, 1988, s. 178.

[6] Джафарзаде И.М. Гобустан. Баку, 1973, s. 334.

[7] Rüstəmov C.N. Qobustanda qayaüstü təsvirlər. Aкademiк İqrar Əliyevin 80 illiyinə həsr olunmuş Elmi кonfransın materialları, Baкı, 2004, səh. 17.

Azərbaycan xalqının qədim dövr tarixinin öyrənilməsi üçün müstəsna əhəmiyyət kəsb edən abidələrdən biri də Gəmiqaya abidələr kompleksidir. Gəmiqaya petroqlifləri Azərbaycanda yaylaq maldarlığının meydana çıxdığı Kür-Araz mədəniyyətinin orta mərhələsindən – e.ə. IV minilliyin sonlarından başlayaraq e.ə. I minilliyin əvvəllərinə qədərki mərhələdə həkk edilmişlər.[1]

Gəmiqayada yüzlərlə heyvan rəsmləri aşkar edilmişdir. Onlardan ən çox saylısı keçi təsvirləridir. Ümumiyyətlə, keçi təsvirləri Gəmiqayada öz sayına görə bütün rəsmlərdən daha artıqdır. Onlara tək, qoşa və sürü halında rast gəlinir. Keçi təsvirlərinin olmadığı səhnələrə az hallarda təsadüf olunur. Gəmiqayada keçi təsvirlərinin üstünlük təşkil etməsi təbiidir. Belə ki, bu abidənin yaradıcıları olan Naxçıvanın tunc dövrü maldar tayfalarının başlıca təsərrüfat sahəsi olan yaylaq maldarlığının əsasını məhz xırdabuynuzlu heyvanlar – keçi və qoyun təşkil edirdi.[2]

Türk xalqlarının mifologiyasında keçi müqəddəs hesab edilmiş, ilahiləşdirilmişdir. A.Jeremiasın verdiyi məlumata görə Türküstanda keçi buynuzunu qəbrə qoyurmuşlar. Qeyd edək ki, qəbrə keçinin çənə sümüyünün, yaxud digər sümüklərinin qoyulması adətinə Naxçıvan abidələrinin tədqiqi zamanı rast gəlinmiş və onların müəyyən ayinlə bağlı olduğu söylənmişdir. Altaylılar uşağı bəd ruhlardan qorumaq üçün zoomorfik onğonların və dağ keçisinin sümüyündən şaltraq hazırlayaraq yanından asırdılar. Culfa rayonunda yerləşən Ərəfsə pirinin fasadına çox miqdarda dağ keçisi buynuzu taxılması keçinin müqəddəsliyi və ona olan inanclarla bağlıdır.[3] Bundan başqa qoyun da Azərbaycanda müqəddəs heyvan hesab edilmiş və onun bu dünya ilə axirət dünyası arasında vasitəçi rol oynadığını güman edərək Altay xalqlarının əksəriyyətində məzarların üstü qoç heykəllərilə bəzədilmişdir.[4]

Kəlbəcər rayonunun yüksək dağlıq hissəsində əsasən heyvan rəsmlərindən ibarət olan xeyli sayda qayaüstü təsvirlər aşkar edilmişdir. Naməlum təsvirlərə əsasən Yazyurdu, Taxta, İstisu, Zalxa, Alagöl və digər yerlərdə rast gəlinmişdir.[5]

Məlum olduğu kimi, qədim dövrdə insanlar heyvan kəllələrinə, o cümlədən heyvan buynuzlarına xüsusi olaraq etiqad etmişlər. Buna misal kimi Əliköməktəpəsindən at kəlləsi ilə öküz buynuzunun bir yerdə aşkar olunmasını göstərmək olar.[6] Bu daha çox onların mühafizəedici keyfiyyətə malik olması ilə əlaqələndirilmişdir. Hələ qədim daş dövrünə aid olan Deşik-daş düşərgəsindəki neandertal insan qəbirindən dağ keçisinin buynuzları da tapılmışdır. Bu cür tapıntılar digər arxeoloji abidələrdən də məlumdur. Etnoqrafik materiallar göstərir ki, keçən əsrdə inquşların dağlardakı pirlərini qoyun və öküzlərin bütöv kəllələri bəzəyirdi. Orta Asiya xalqlarında da dağ qoyunlarının və keçilərinin buynuzları müqəddəs hesab edilmiş və buynuzlar qəbir daşlarının üzərinə qoyul-

---

[1] Müseyibli N.Ə. Gəmiqayada qədim nəqliyyat vasitələrinin rəsmləri. Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, № 2, Bakı, 2003, səh. 39.

[2] Müseyibli N.Ə. Gəmiqaya..., səh. 19.

[3] Baxşəliyev V. Gəmiqaya təsvirləri. Bakı, 2003, səh. 91.

[4] Məmmədov K. Qoçbaşı abidələr. Altay dünyası, № 5-6, B., 1999, səh. 49.

[5] Исмаилов Г.С. Исследование петроглифов на Кельбаджарском высокогорье. Археологические открытия 1985 года. М., «Наука», 1987, s. 550.

[6] Нариманов И.Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана (эпоха энеолита VI-IV тыс. до н.э.). Баку, 1987, с. 251, şək. 55.

muşdur.[1]

Beləliкlə, hər bir xalqın olduğu кimi Azərbaycan xalqının da qədim dini ayinlərini və etiqadını öyrənməк həm tarixi və həm də əməli əhəmiyyət кəsb edir. Tarixi nöqteyi-nəzərindən ayinlər xalqın qədim məişət-mədəniyyətini özündə əкs etdirir. Eneolit və ilк tunc dövründə maldarlığın inкişafı ilə əlaqədar müəyyən dini etiqadlar və mərasimlər meydana gəldi кi, həmin inanclar bu gün də müxtəlif formada da olsa yaşamaqda davam edir. Çünкi tarixin inкişafı prosesində xalqın məişəti, həyat tərzi dəyişilirsə də, onun etiqadı və ayinləri uzun müddət yaşaya bilir.

## РАЗВИТИЕ СКОТОВОДСТВА И ПОКЛОНЕНИЕ ДОМАШНИМ ЖИВОТНЫМ В ЭПОХУ ЭНЕОЛИТА И РАННЕЙ БРОНЗЫ В АЗЕРБАЙДЖАНЕ

**Н.В.ГУЛУЗАДЕ**

**РЕЗЮМЕ**

В представленной статье затронуты вопросы скотоводческого хозяйства и поклонения домашним животным, составляющим одну из главных областей экономики местных племен.

Новая интерпретация основана на археологические и этнографические данные.

## DEVELOPMENT OF CATTLE-BREEDING AND WORSHIPPING TO DOMESTIC ANIMALS IN THE PERIOD OF ENEOLITH AND IN THE EARLY AGE OF BRONZE IN AZERBAIJAN

**N.V.GULUZADEH**

**SUMMARY**

Here the author is dealing with the problem of cattle-breeding economy and the worshipping to domestic animals being on of the main branches of the economy of the local tribes.

The new interpretation is being based on the archeological and the ethnographical data.

[1] Soкolova Z.P. Göstərilən əsəri, səh. 40.